https://doi.org/10.59849/3006-1342.2025.1.54
UOT 94 (479. 24).

*Mehin Bayram qızı İbrahimli*
*Sumqayıt Dövlət Universiteti*
*Sumqayıt ş.*
*E-mail: Mehin.M.96@Mail.Ru*

# SUMQAYIT ŞƏHƏRİNİN İQTİSADİ İNKİŞAFI (2014-2018-Cİ İLLƏR)

*Təqdim edilmiş məqalədə 2014-cü il ölkədə "Sənaye ili" elan edilməsinin Sumqayıtda yeni istehsal sahələri yaradılmasına təsiri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sumqayıt şəhərinə səfərləri çərçivəsində diqqət və qayğıları, Dövlət başçısının müvafiq fərmanları ilə texnoparkların yaradılması, bu texnoparklarda müasir istehsal sahəslərinin istifadəyə verilməsi, Sumqayıt şəhərinin sosial-iqtisadi həyatında yüksək artım tempinə təsir edən amillər tədqiqata cəlb edilmiş, Azərbaycan Respublikasının Regionlarının sosial iqtisadi inkişafı üzrə Dövlət proqramının tərkib hissəsi olmaqla şəhər üzrə kompleks tədbirlərin həyata keçirilməsinin Sumqayıtın sosial iqtisadi göstəricilərinin artan dinamikasına təsiri, Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri neft sənayesinin inkişafı və ixrac potensialının artırılması və yeni müasir istehsal sahələrinin yaradılmasının dəstəklənməsi təhlil edilmişdir. Bununla yanaşı Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət proqramı"nın qəbul edilməsi bu sahədə işlərin kompleks şəkildə ardıcıllıqla aparılması, Prezident İlham Əliyevin tapşırığı və yaxından köməyi ilə şəhər icra hakimiyyəti başçısının yüksək peşəkarlığı ilə aparılan abadlıq quruculuq işlərinin və regionların sosial iqtisadi inkişafın dövlət proqramının uğurlu icrasının Sumqayıt şəhərinin inkişafında yeni bir mərhələnin yaranmasına və davamlı sosial iqtisadi inkişaf sahəsində mühüm nailiyyətlər əldə edilməsinə təsiri, sahibkarlığı dəstəkləmək və əhalinin istehsalı sahəsində məşğulluğunu artırmaq məqsədilə yaradılan Sənaye parkında yeni müəssisələrin tikinti quraşdırma işlərinin uğurla davam etdirilməsi, ölkə iqtisadiyyatında xüsusi rola və çəkiyə malik olan Sumqayıt Kimya Sənaye parkında sənaye sahələri üzrə ixtisaslı kadrların hazırlanması üçün müasir tipli peşə tədris mərkəzinin yaradılması araşdırılmışdır.*

*Açar sözlər:* Sumqayıt, iqtisadi inkişaf, sənaye, Dövlət proqramı, "Sənaye ili", Regionlarin iqtisadi inkişafı, sənaye parkları

*Giriş.* Sumqayıt şəhərində iri sənaye müəssisələrinin böyük əksəriyyəti sovet rejimi dövründə tikilib istifadəyə verilsə də iqtisadi baxımdan Azərbaycanın deyil, İttifaqa daxil olan digər Respublikaların maraqlarına daha çox xidmət edirdi. Digər tərəfdən isə insan sağlamlığı üçün təhlükəli olan bəzi istehsal sahələri sanki məqsədli olaraq Sumqayıt ərazisində salınmışdır. Bunlara baxmayaraq Azərbaycanın ən mühüm sənaye mərkəzlərindən biri olan Sumqayıt şəhərinin milli və dövləti maraqlara uyğun olaraq iqtisadi inkişafının əsası, müstəqilliyin əldə edilməsi ilə qoyulmuşdur. Müstəqilliyin ilk illərində Azərbaycanda baş vermiş iqtisadi böhran öz mənfi təsirini Sumqayıt iqtisadiyyatına da göstərmişdir. Bu zaman sovet ittifaqı dövründə məqsədli şəkildə bir-birindən asılı vəziyyətə salınmış ittifaq respublikaları arasında illərlə formalaşmış iqtisadi əlaqələr kəsilmişdir ki, bu da iqtisadi böhranın daha da dərinləşməsinə səbəb olmuşdur. Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması və "Əsrin müqaviləsi"nin imzalanmasından sonra xarici investisiyanın cəlb edilməsi və yeni texnologiyanın tətbiqinin nəticəsi olaraq Sumqayıt iqtisadi baxımdan inkişaf etməyə başladı. 2003-cü ildən İlham Əliyevin hakimiyyət başına gəlməsindən sonra

Sumqayıtın iqtisadi inkişafında yeni bir mərhələnin əsası qoyuldu. 2014-2018-ci illərdə Sumqayıt iqtisadiyyatı illər üzrə yüksələn xətlə inkişaf etmişdir.

*Əsas hissə.* 2014-cü ilin I rübü ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və sərəncamlarına uyğun olaraq Sumqayıtda müasir istehsal sahələri yaradılmış və istifadəyə verilmişdir. Prezidentin sərəncamı ilə 2014-cü il ölkədə “Sənaye ili” elan edilmişdir. Yeni və müasir müəssisələrin məhz bu il istifadəyə verilməsi sənaye ilinin bir daha uğurlu olacağından xəbər verir. Dövlətimizin başçısı cari ilin fevral ayının 25-də Sumqayıta növbəti səfərini etmiş, bir sıra yeni müəssisələrin açılışında iştirak etmişdir. Azərbaycan Respublikası Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramının təsdiq edilməsi haqqında fərman imzalamışdır.

Dövlət proqramında Sumqayıt şəhəri üzrə 16 bənddən ibarət geniş miqyaslı tədbirlərin icrası müəyyən edilmişdir. Beləki şəhərin sənaye sahəsinin inkişaf istiqaməti üzrə Sumqayıt Kimya Sənaye Parkı çərçivəsində işlərin davam etdirilməsi, neft kimya və digər sənaye sahələrinin inkişafının dəstəklənməsi, o cümlədə karbonit istehsalı zavodunun tikintisinin davam etdirilməsi şəhərdə abadlıq quruculuq işlərinin yol infrastrukturunun təkmilləşdirilməsini və elektrik enerjisi təminatının, istilik təchizatının və qaz təchizatının, rabitə və informasiya xidmətlərinin yaxşılaşdırılması sahəsində müvafiq işlərin davam etdirilməsi, o cümlədən elektrik verilişi xətlərinin tikintisi və yenidən qurulması müəyyən edilmişdir [16, s.2].

İaşə dövriyyəsini həcmi əvvəlki ilin (2012-ci il) müvafiq dövrü ilə müqayisədə 9,3 faiz artaraq 5437,5 min manat təşkil etmişdir. Özəl sektorda iaşə dövriyyəsinin 33,6 faizi hüquqi şəxs statususlu müəssələri, 66,4 faizi hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fərdi sahibkarların iaşə fəaliyyəti sahəsində formalaşmışdır. Hüquqi şəxs statuslu müəssisələrdə iaşə dövryyəsinin həcmi ötən ilin müvafiq dövri ilə müqayisədə 1 milyon 831,5 min manat və ya 33,3 faiz artmışdır [28, s.3].

O zaman Sumqayıt şəhərində 35 iri, 66 kiçik olmaqla 101 sənaye müəssisələri – mədənçıxarma sənayesi, kimya metallugiya sənayesi müxtəlif növ qida məhsullarının, toxuculuq sənayesi, kağız və karton istehsalı, ağac emalı və ağacdan məmulatların, hazır metal məmulatlarının və elektrik enerjisinin istehsalı sahələri fəaliyyət göstərmişdir. Şəhərdə sənaye sahəsinin iri və kiçik təəsərrüfat subyektləri tərəfindən istehsal olunmuş mal və xidmətin həcmi əvvəlki illə müqayisədə sabit qiymətlərlə 7,9 faiz artaraq 244 403 min manat təşkil etmişdir. Sənaye məhsulunun 0,4 faizi mədənçıxarma, 7,1 faizi emal, 18,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı, 2,2 faizi isə su təchizatı tullantıların təmizlənməsi və emalı bölmələrində istehsal olunmuşdur. 2014-cü ilin yanvar-iyun ərzində emal sənayesinin iri, orta və kiçik dövlət sektorunda istehsal həcmi 117959, 8 min manat, qeyri dövlət sektorunun istehsalın həcmi 59636,5 min manat olmuşdur. Sənaye istehsalında dövlət sektorunun xüsusi çəkisi 73 faiz, qeyri dövlət sektoru 26,9 faiz təşkil etmişdir [2, s.2].

Cari ilin (2014-cü il İ.M.) 9 ayı ərzində ölkəmizdə qazanılmış uğurlarda Sumqayıt şəhərinin öz payı olmuşdur. Belə ki, şəhər üzrə məhsul və xidmətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz artaraq 564,9 milyon manat təşkil etmişdir. Sənaye sektorunda məhsul istehsalı 11,1 faiz artaraq 340 milyon manat olmuşdur. Eyn zamanda işçilərin orta aylıq əmək haqqı 480 manat səviyəsinə çatdırılmış, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,7 faiz çox deməkdir. Şəhərin kimya və neft kimya müəssisələrində dinamik inkişafa nail olunmuş, kimya müəssisələrinin istehsal göstəriciləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 61,2 faiz artmışdır. Həyata keçirilən tədbirlər nəticəsində hesabat dövründə idarə, müəssisə və təşkilatlarda sahibkarlıq subyektlərində hamsı daimi olmaqla 5059 yeni iş yeri yaradılmışdır [11, s.1].

Son 10 ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi sənayenin inişafında da uğurlar qazanılmış, sənayenin istehsalı 2,7 dəfə artmışdır. Diqqət çəkən ən vacib amillərdən biri də bu dövrdə ölkə sənayesinə 40 milyard manatdan çox investisiyanın yatırılmasıdır. Hazırki mərhələdə isə müasir çağırışlar və yeni təşəbbüslər nəzər alınmaqla sənayenin moderləşdirilməsi və qeyri neft sənayesinin şaxələndirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilir. Bundan əlavə mövcud təbbi və iqtisadi ehtiyatların təsərrüfat dövriyyəsinə cəlb edilməsi ənənəvi sənaye sahələri ilə yanaşı, yeni istehsal sahələrinin sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşmasında diqqətdən kənarda qalmır [32, s.3].

Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq 2014-cü il ölkəmizdə sənaye ili elan edilmişdir. Bununla əlaqədar olaraq ötən il sənayeləşmə siyasəti çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi, mövcud, təbbi və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi, yeni sənaye məhsulları istehsalı sahələrinin yaradılması, regionlarda sənaye portensialının gücləndirilməsi, və sənaye innovasiyaları əsasında təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirildi. Belə tədbirlərdən biri də Azərbaycan prezidentinin tapşırığına uyğun olaraq dövlətin güzəştli kreditləri hesabına tikinti materialları müəssisələrinin ən müasir texnologiya və avadanlıq əsasında yaradılmasıdır. Bu məqsədlə İqtisadiyyat və Sənaye nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 186 milyon manat olan 18 tikinti materialları istehsalı müəssisəsinin yaradılmasına, ən müasir texnologiya və avadanlıqla təchiz edilməsinə, 70 milyon manat güzəştli kredit verilib [27, s.4].

2014-cü il Sumqayıt şəhəri üçün uğurlu olmuşdur. Ölkəmizin yüksək inkişaf mərhələsinə qədəm qoyması - ümumi daxili məhsulun artım tempi, büdcə gəlirlərinin ildən ilə əhəmiyyətli dərəcə də çoxaldılması Sumqayıt şəhərinin sosial-iqtisadi həyatında yüksək artım tempinə şərait yaratmışdır. Hesabat ilində şəhər üzrə ümumidaxili məhsul istehsalı 780 milyon manat olmuş, əvvəlki lə müqayisədə artım 9 faiz təşkil etmişdir. Şəhərin sənaye müəssisələrində həmsul isthesalı 18 faiz artaraq 460 milyon manat təşkil etmişdir. Sənayenin ayrı-ayrı sahələri üzrə də uğurlar əldə olunmşdur. Kimya sənayesində artim 31,6 faiz, yüngül sənayedə 25 faiz, yeyinti sənayesində 73,4 faiz olmuşdur [15, s.2].

Məhsul istehsalı və xidmətlər buraxılışının həcmi ötən ilin müvafiq dövrü ilə (2014-cü il) müqayisədə nəzərə çarpacaq dərəcə də artmışdır. Ümumi daxili məhsul ötən ilin eyni dövrü ilə müqayisədə 158,9 milyon manat olmuş, artım 6 faiz təşkil etmişdir. Bu müddət ərzində şəhərin sənaye müəssisələrində məhsul istehsalı 95,5 milyon manat olmuşdur [14, s.2].

Möhtərəm prezident son 4 ildə (2010-2014-cü illər) 8 dəfə Sumqayıtda olmuşdur. Şübhəsiz bu səfərlər sadəcə protokol xarakteri daşımayıb. Sumqayıtla bağlı strateji planların, layihələrin reallaşdırılmasına əməli dəstək olub. Dövlət başçısı bu səfərlər zamanı Sumqayıtda çoxsaylı obyektlərin açılış məraisimdə iştirak etmiş, şəhərin müxtəlif yerlərində, park və xiyabanlarda küçələrdə, o cümlədən dənizkənarı bulvarda başlamış əsaslı təmir, yenidənqurma işlərinin gedişi ilə yenidən tanış olmuş, bu işlərin zövqlə aparılması üçün dəyərli tövsiyələrini vermişdir [8, s.3].

Azərbaycan Respbulikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu sosial-iqtsadi siyasəti bir tərəfdən ölkənin zəngin enerji resurslarının dünya bazarına nəqlinə imkan verən lahiyələrin reallaşdırılmasına və Azərbaycanın gəlirlərinin sürətlə artmasına, digər tərəfdən isə bu gəlirlərin səmərəli idarə edilməsi və iqtisadiyyatın şaxələndirilməsi üzrə ardıcıl islahatların həyata keçirilməsinə, qısa müddətə ölkə vətəndaşlarının rifah səviyyəsinin yüksəlməsinə gətirib çıxarmışdır.

Cari ilin 6 ayında iqtisadiyyat 5,7 faiz, qeyri neft sektorunun inkişafı 9,2 faiz, sənaye istehsalı 4 fazi artmışdır. Ölkədə sənayeləşmə yeni sənaye zonalarının yaradılması istiqamətində görülmüş işlərin nəticəsində qeyri neft sənayesi 14 faiz, infilyasiya 3,5 faiz, əhalinin pul gəliri infilyasiyanı üstələyərək 6,2 faiz artmışdır. Cənab prezident son 4 ildə 8 dəfə Sumqayıta gəlmiş, şəhərin dinamik inkişafı üçün özünün diqqət və qayğısının əsirgəməmişdir. Bu səfərlər zamanı şəhərdə gedən əsaslı dəyişikliklərlə yeni layihələrlə yaxından tanış olmuş, təzə obyektlərin açılışında iştirak etmiş, daha böyük işlərin reallaşması üçün özünün tövsiyyələrini vermişdir [20, s.1].

Cari ilin (2015) yanvar ayının 13-də ölkə prezdienti cənab İlham Əliyevin şəhərimizə səfəri və iki sənaye müəssisəsinin “Alyans-Tekstil” fabrikinin beton məmulatları zavodunun Sumqayıt Gənclər evinin, 20 Yanvar, Xocalı faciəsi qurbanlarının xatirəsinə ucadılmış kompleksin, Yaşıl teatrın açılışında iştirakı hər bir Sumqayıtlının xatirəsində dərin iz qoymuşdur... Qlobal maliyyə böhranı və iqtisadi tənəzzülün davam etməsinə baxmayaraq 9 ayda şəhər üzrə ümumi daxili məhsul istehsalı və xidmətləri həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə artmışdır. Sənaye məhsulnuun həcmi 305,5 milyon manat olmaqla artım tempi 0,6 faiz, ümumi daxili məhsulun tərkibində qeyri neft sekotruunun payı 75 faizdən çox tə.şkil etmişdir. İstehsal olunan məhsulun 90 faizindən çoxu istehlakçılara göndərilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə elektrik enerjisi istehsalı 21 faiz artmışdır [21, s.1].

Dövlətimizin başçısının müvafiq fərmanları ilə texnoparkların yaradılması, bu texnoparklarda müasir istehsal sahəslərinin istifadəyə verilməsi ölkə iqtisadiyyatının gücləndirilməsinə, rəqabətə davamlı və keyfiyyətli məhsulların istehsalına geniş imkanlar açıb. Belə müəssisələrə rəqabətə davamlı məhsul istehsal etməklə Azərbaycanda gedən iqtisadi inkişaf proseslərinə mühüm töfhə verir. Bununla da son illərdə ölkəmizdə həyata keçirilən iqtisadi islahatların uğurlarına təminat yaradır. Texniki avadanlılar zavodunun laboratoriyasında spektrial analiz cihazı ilə analizlər aparılır. Burada həmçinin qum və mikroquruluş laboratoriyaları var [30, s.2].

2012-ci ilin aprelin 24-də şəhərimizə gələn dövlət başçısı Sumqayıtda inkişaf olunmuş Azgüntex zavodunun açılışında iştirak etmişdir. Həmin gün şəhərin texnologiyalar parkında polimer məhsulları istehsalı zavodunun genişləndirilməsi işləri ilə tanış olan cənab prezident İlham Əliyev ağır maşınqayırma və digər emal mərkəzləri zavodlarının açılışında da iştirak etmişdir. Cənab prezident İlham Əliyev Sumqayıtlılara diqqət və qayğısının daha bir nümunəsini imzaladığı bir fərmanda da aydın göstərir. Bu yüksək texnologiyalar parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanıdır [25, s.3].

2015-ci il 25 oktyabrda ölkə prezidenti cənasb İlham Əliyevin Sumqayıt şəhərinə səfərləri və səfər çərçivəsində şəhərin sosial-iqtisadi inkişafında böyük əhəmiyyəti olan 4 sənaye müəssisəsinin “Alyans-Tekstil” fabrikinin, beton məmulatları, texniki avadanlıq zavodlarının, Etilen Polietilen zavodlarında yeni qurğuların işə salınması, yüksək sıxlıqlı polietilen zavodunun təməlqoyma mərasimlərində, Sumqayıt Gənclər evininin açılışda iştirakı, Nəsimi adına mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanışlığı hər bir sumqayıtlının xatirəsində dərin iz qoymuşdur [17, s.2].

Sənaye potensialında əldə olunmuş uğurlarla bərabər dünyada baş verən mailiyyə böhranı Sumqayıt sənayesində də öz təsirini göstərmişdir. Bir çox iri müəssisələrin məhsul satışı və xammal təchizatında yaranmış çətinliklər nəticəsində proqnoz tapşırıqlar yerinə yetirilməmişdir. Belə ki, “Azərboru” ASC, Sumqayıt Texnologiyalar park, “Sağlam qida” kompleksi, “İntertekstil” ASC və s. müəssisələr ötən illə müqayisədə geri qalmışdır [31, s.2].

2014-cü ilin sənaye ili elan edilməsi “Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət proqramı”nın qəbul edilməsi bu sahədə işlərin kompleks şəkildə ardıcıllıqla aparılmasını təmin edir. Proqramın icrası məqsədilə biznes investisiya mühitinin davamlı olaraq təkmilləşdirilməsi, sənayenin rəqabət qabiliyyətinin artırılması, sənaye sahəsində

fəaliyyət göstərən sahibkarlara dövlət dəstəyinin göstərilməsi bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsi və infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilir [29, s.8].

9 ayda (2016-cı il. İ.M.) həyata keçirilən geniş miqyaslı tədbirlər nəticəsində Sumqayıt iqtisadiyyatı sürətlə inkişaf etmiş, aparıcı sahələrdə müsbət irəliləyişə nail olunmuşdur. Şəhər üzrə ümumi daxili məhsul istehsalı və xidmətlərinin həcmi 837,3 milyon manat təşkil etmiş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 258,2 milyon manat və ya 44,6 faiz çox məhsul istehsal olunmuş və xidmət göstərilmişdir. Sənaye məhsulunun istehsalı ötən ilin eyni dövrü ilə müqyisədə 78 faiz artaraq 543,9 milyon manat təşkil etmiş, və ya 238,4 milyon manat çox sənaye məshulu istehsal olunmuşdur. Ümumidaxili məhsulun tərkibində qeyri dövlət sektorunun payı 80 faiz həddini ötmüşdür. İlin əvvəlindən şəhər üzrə bütün maliyyə mənbələri hesabına ayrı ayrı sahələrin inkişafına 600 milyon manata vəsait yönəldilmişdir [22, s.2].

Son illərdə Sumqayıtın davamlı inkişafı sahəsində atılan addımlar Azərbaycan Respublikasının Regionlarının sosial iqtisadi inkişafı üzrə Dövlət proqramının tərkib hissəsi olmaqla şəhər üzrə kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmış, bütün bunlar öz növbəsində Sumqayıtın sosial iqtisadi göstəricilərinin ilbəil artan dinamika ilə hərəkətinə imkan vermişdir. Qeyri dövlət sektorunun dinamik inkişafının təmin edilməsi, bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi, Cənab prezidentin Sosial inkişaf siyasətinin prioritet istiqamətlərindəndir. Bu siyasətə uyğun Sumqayıtda da qeyri neft sektorunun əsas sahələrindən olan sənayenin inkişafına xüsusi diqqət yetirilir. Prezidentin təşəbbüsü ilə Sumqayıtda Cənubi Qafqazın ən iri texnologiyalar parkının yaradılması məhz bu diqqətin nəticəsidir.

Şəhər üzrə ümumidaxili məhsul istehsalı xidmətlərin həcmi 1 milyard 178 milyon manat təşkil etmiş, ötən ilin (2016) müvafiq dövrü ilə müqayisədə 148 faiz və ya 382 milyon manat çox məhsul istehsalı olunub və xidmət göstərilmişdir. Sənaye məhsulunun istehsalı 802,2 milyon manat təşkil etmiş və ötən illə müqayisədə 183,2 faiz və ya 364,5 milyon manat çox məhsul istehsal olunub. Ümumidaxili məhsulun tərkibində qeyri dövlət sektorunun payı 80 faizi ötmüşdür.

Şəhər üzrə bütün maliyyə mənbələri hesabına ayrı-ayrı sahələrin inkişafının 350 milyon manat vəsait yönəldilib. Artım tempi 146 faiz təşkil etmişdir. Kapital qoyuluşu əsasən inşaat işləri davam etdirilməkdə olan yeni sənaye sahələri tərəfindən aparılıb. Və şəhərdə davam edən abadlıq və qurucluq işlərinə yönəldilmişdir. Tikinti quraşdırma işlərinin həcmi 156 faiz olub. Ticarət dövriyyəsi 18 faiz artmışdır. Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial iqtisadi inkişaf Dövlət proqramında Sumqayıt şəhəri üzrə nəzərdə tutulan 16 bənddən ibarət tədbirlərin mərhələ mərhələ həyata keçirilməsi üçün lazımlı şərait yaradılır. Hazırda bir çox infrastruktur layihələrin icrası davam etdirilir. Müasir sosial obyektlərin qabaqcıl texnologiyalar əsasında istehsal sahələrinin yaradılmasına böyük diqqət yetirilir.

Azərbaycan Respublikası prezidenti 2014-cü il 26 dekabr tarixli 964 nömrəli sərəcamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət proqramı xüsusi əhəmiyyət kəsb edir. Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi qeyri neft sənayesinin inkişafı və ixrac potensialının artırılması, ük əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, yeni müasir istehsal sahələrinin yaradılmasının dəstəklənməsi və sənaye sahəsində məşğulluğun təmin olunması dövlət proqramının əsas əqsəd və vəzifələrindəndir [12, s.2].

Sumqayıt Kimya Sənaye parkı istər investisiya həcmi, istərsədə sahəsinə görə Cənubi Qafqazın ən iri sənaye parkıdır. Ümumiyyətlə sənaye parkları bugün dünya iqtisadiyyatında böyük rola malikdir. Və bu rol getdikcə artmaqdadırt. Bugün əksər inkişaf etmiş ölkələrdə sənaye istehsalında əsas pay sənaye parklarına məxsusdur. Qısa müddət ərzində 295,62 hektar ərazidə yerləşən texnoloji cəhətdən köhnəlmiş zavodların, yeraltı və yerüstü obyeklərin

sökündüsü və daşınması işi yüksək səviyyədə yerinə yetirilmiş, ərazi tam olaraq təmizlənmişdir.

Ölkəmizdə aparılan iqtisadi siyasətin mühüm tərkib hissəsi olan sənayeşləməsinin həyata keçirilməsi nəticəsində son illər Sumqayıt şəhərində yeni sənaye sahələri yaradılıb. Tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixrac potensialı yüksəlib. Sənaye məhsullarının istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 16,4 fazi artaraq 202,3 milyon manat olmuş, istehsal 28,5 milyon manatdan çox artmışdır. Ümumdaxili məhsulun tərkibində qeyri dövlət neft skeotrunun payı 85 faizdən çox olmuşdur. Məhsul istehsalının həcmi kimya sənaye nəhsulları üzrə 103,4 faiz, metallurgiya üzrə 118,8, yüngül sənaye üzrə 3,2 dəfə, yeyinti sənayesi üzrə 130 faiz, tikinti materialları üzrə 150 faiz, digər sahələr üzrə 118 faiz olmuşdur. İlin əvvəlindən (2017) şəhər üzrə bütün maliyyə mənbələri hesabına ayrı-ayrı sahələrin inkişafına 12 milyon manat vəsait yönəldilmişdir. Kapital qoyuluşu əsasən inşaat işləri davam etdirilən sənaye sahələrinə yönəldilmişdir. Tikinti quraşdırma işlərinin həcmi ötən ilin müvafiq dövrü səviyyəsində yəni 9 milyon manat həcmində olmuşdur [12, s.2].

Şəhər üzrə ümumi daxili məhsul və xidmətlərin həcmi 774,4 milyon manat və ya 138,6 faiz təşkil etmiş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2116,4 milyon manat və ya 38,6 faiz çox məhsul istehsal olunmuş və xidmət göstərilmişdir. Sənaye məhsulunun istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 46,6 faiz, 573,4 milyon manata olmuş, məhsul istehsalı 182,2 milyon manatdan çox artmışdır. Ümumdaxili məhsulun tərkibində qeyri dövlət sektorunun payı 85 faizdan çox təşkil etmişdir. Şəhər üzrə bütün maliyyə mənbələri hesabına ayrı ayrı sahələrin inkişafına 70 milyon manat vəsait yönədilmişdir. Bu ötən ilin müvafiq dövrünə nisbətən 4 milyon manat çox olmuşdur. Tikinti quraşdırma işləri 104 faiz təşkil etmişdir [24, s.1].

Prezident İlham Əliyevin tapşırıqı və yaxın köməyi vasitəilə şəhər icra hakimiyyəti başçısının yüksək peşəkarlığı ilə son iki ildə aparılan abadlıq quruculuq işlərinin və regionların sosial iqtisadi inkişafı dövlət proqramının uğurlu icrası Sumqayıt şəhərinin inkişafında yeni bir mərhələnin yaranmasına səbəb olmuş, davamlı sosial iqtisadi inkişaf sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə (2016) şəhər üzrə ümumdaixli məhsul 30 faiz artmışdır. Ümumidaxili məhsulun həcmi 837,3 milyon manatdan 1 milyard 62 milyon manata çatmışdır. Sənaye məhsulunun həcmi 246 milyon manat artaraq 790 milyon manat, artım tempi 45 faiz, ümumidaxili məhsulun tərkibində qeyri neft sektorunun payı 85 faizdən çox təşkil etmişdir. Şəhərin ayrı ayrı sahələri üzrə məhsulı istehsalında dimamik inişaf təmin edilmişdir. Bütün maliyyə mənbələri hesabına şəhərdə investisiya qoyuluşu 35 faiz artmaqla 285 milyon manat təşkil etmişdir. Cari ildə 256 milyon manatlıq tikinti quraşdırma işləri həyata keçirilmiş, 124 faiz həcmində olmuşdur [23, s.1].

Biz 2017 ili uğurla başa vurduq. 11 ayda sənaye istehsalı qeyri neft sahəsində 3,5 faiz, qeyri neft iqtisadiyyatımız 2,4 faiz, kənd təsərrüfatı 4 faizdən çox artıbdır. Valyuta ehtiyatlarımız da artır. Maliyyə vəziyyətimiz də çox sabitdir [18, s.4]. Sumqayıtda son illərdə 20-ə yaxın səfər edən dövlət başçısı onun strateji inkişaf planı ilə bağlı fikirlərini açıqlamış, şəhərin paytaxt standartlarına uyğunlaşdırılmasını mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Azərbaycan Prezidentinin bu və ya digər səfərlər zamanı Sumqayıt sakinləri ilə keçirdiyi görüşlər şəhər infrastrukturunun və sənayenin yeniləşməsi ilə bağlı söylədiyi dəyərli fikirlər, haqlı olaraq belə qənaət yaratmışdır ki, bundan sonrakı mərhələdə Sumqayıtın inkişafı məqsədilə atılan addımlar daha sistemli, ünvanlı, ardıcıl xarakter daşıyacaqdır [10, s.7].

2017-ci ilin nəticələri bundan əvvəlki dövrün göstəriciləri ilə müqayisədə xeyli artmışdır. 2016-cı illə müqayisədə 2017-ci ildə ümumdaxili məhsulun həcmi 30,2 faiz artaraq

1 milyard 533 milyon manatdan çox olmuşdur. Bunun bir nəfərə düşən həcmi 4489 manat təşkil etmişdir ki, bu da 2016-cı ilə nisbətə 32,4 faiz çoxdur. Ötən illə müqayisədə sənaye müəssisələrində məhsul istehsalı 34 faiz artaraq 1milyard 81 milyon manat təşkil etmişdir. Ümumdaxili məhsulun tərkibində qeyri dövlət sektorunun payı 85 faizdən çox olmuşdur. Bütün maliyyə mənbələri hesabına ayrı-ayrı sahələrin inkişafına 410 milyon manat vəsait yönəldilmiş, artım tempi 16,8 faiz təşkil etmişdir. Kapital qoyuluşunun 73,4 faizi bilavastiə tikinti quraşdırma işlərinin yerinə yetirilməsinə yönəldilmişdir. 2017-ci- ildə tikinti quraşdırma işlərinin həcmi 17 faiz artmışdır [26, s.2].

Son illər sənaye və texnologiyalar Parkının, sənaye məhəllərinin yaradılması istiqamətində də ciddi addımlar atılmış, Kimya, təkrar emal, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye və texnologiyalar parkları- Sumqayıt Kimya sənayesi Parkı yaradılmışdır [9, s.4].

2018-ci il rüb ərzində iqtisadiyyat 2,3 faiz, qeyri neft sektoru 3 faiz, sənaye istehsalı 2 faiz, qeyri neft sənayesi 10 faiz, kənd təsərrüfatı məhsullarının istehsalı 2 faiz artmışdır. 34 min yeni iş yeri açılmışdır. Ölkəmizdə aparılan iqtisadi siyasətin mühüm tərkib hissəsi olan sənayeləşmənin həyata keçirilməsi nəticəsində son illər Sumqayıt şəhərində yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixrac potensialı yüksəlib. Sənaye məhsullarıın istehsalı ötən ilin (2017) eyni dövrü ilə müqayisədə 46,2 faiz artaraq 296 milyon manat olmuş, məhsul istehsalı 94 milyon manatdan çox artmışdır. Ümumdaxili məhsulun tərkibində qeyri dövlət sektorunun payı 85 faizdən çox olmuşdur. Sənaye sahələri üzrə məhsul istehsalının həcmi kimya sənaye məhsulları üzrə 147 faiz, metallurgiya üzrə 8 dəfə, tüngül sənaye üzrə 149, yeyinti sənayesi üzrə 113, tikinti materilları üzrə 146, energetika üzrə 210 və digər sahələr üzrə 129 faiz olmuşdur. İlin əvvəlindən bütün maliyyə mənbələri hesabına ayrı ayrı sahələrin inkişafına 44,4 milyon manat vəsait yönəldilmişdir. Kapital qoyuluşu keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,7 dəfə, tikinti quraşdırma işlərinin həcmi isə 4 dəfə artmışdır [13, s.3].

Şəhərdə cari ilin 6 ayı ərzində ümumdaxili məhsul istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 20 faiz və 157 milyon manat artaraq 933 milyon manat olmuşdur. Sənaye müəssisələrində 705 milyon manatlıq məhsul istehsal edilmişdir ki, buda əvvəlki ilin müvafiq dövrü ilə müqayiədə 123 faiz təşkil edir. Ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye sahələrini inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsalı sahəsində məşğulluğunu artırmaq məqsədilə yaradılan Sumqayıt Kimya Sənaye parkında yeni müəssisələrin tikinti quraşdırma işlərinin uğurla davam etdirilməsi yaxın gələcəkdə şəhərin sosial-iqtisasdi göstəricilərinin daha da artmasına zəmin yaradır. Ölkə iqtisadiyyatında xüsusi rola və çəkiyə malik olan Sumqayıt Kimya Sənaye parkında sənaye sahələri üzrə ixtisaslı kadrların hazırlanması üçün müasir tipli peşə tədris mərkəzinin, Kanada və Avstriya texnologiyası əsasında istehsal gücü 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsalı zavodlarının tikintisi davam etdirilir. Ölkədə çoxşaxəli və ardıcıl islahatların davam etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması məqsədilə sahibkarlara dövlət dəstəyi daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə hesabat dövründə 3 layihə üzrə 4 milyon 195 min manat məbləğində güzəştli kredit ayrılmışdır. Bu layihələrin icrası nəticəsində 100-dən çox yeni iş yeri yaradılmışdır. Sumqayıt Kimya sənaye parkında 9 müəssisə fəaliyyət göstərir və müəssisələr tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, “Made in Azerbaijan” brendi ilə xarici bazarlara ixrac edilir [19, s.2].

Sumqayıt güclü sənaye potensialına malik əlvan və qara metallurgiya, kimya və neftkimya, kompressorlar, cihazqayırma, polimüe və tikinti materialları, aşqarlar, qida kompleksləri və s. böyük istehsal sahələrinə malikdir [6, s.18].

Məlumdur ki, əsası qoyulan vaxtdan Sumqayıt kimyaçılar şəhəri, ölkəmizin iri sənaye mərkəzi kimi formalaşıb. Vaxtilə birtərəfli istiqamət alan bu inkişaf şəhərin digər əhəmiyyətli sahələrini, xüsusilə də mədəni həyatını kölgədə qoyub. Son illər ərzində bu istiqamətdə qazanılan nailiyyətlər xüsusilə sevindiricidir [7, s.5].

Sumqayıt sənaye mərkəzinin mövcud potensialından daha effektli istifadə edilməsi, burada yenidənqurma və modernzasiya tədbirlərinin gücləndirilməsi yaxın dövrlərin ən prioritet fəaliyyət istiqamətləri kimi diqqəti cəlb edir [5, s.140]. Sumqayıt sənaye mərkəzinin mövcud potensialından daha səmərəli istifadə edilməsi, burada yenidənqurma və modernizasiya tədbirlərinin gücləndirilməsi yaxın dövrlərin ən prioritet fəaliyyət istiqamətləri kimi diqqəti cəlb edir [5, s.142].

Ölkəmizdə Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanı əsasında təşkil olunan Sumqayıt Kimya Sənaye Parkı respublikamızda yaradılan ilk və ən böyük sənaye parkıdır. Parkın 508 hektarlıq ümumi ərazisinin 450 hektarı sənaye zonasıdır. Artıq burada 75 faiz məskunlaşma qeydə alınıb. Hazırda parkın ərazisində 13 zavod fəaliyyət göstərir və əlavə 7 zavodun gələn il fəaliyyətə başlayacağı gözlənilir. Sumqayıt Kimya Sənaye Parkında 20 rezident var. Qoyulmuş sərmayə milyardlarla dollar səviyyəsindədir [1].

Şəhərin (70 illiyi ilə əlaqədar İ.M.) sosial-iqtisadi inkişafında xidmətlərinə görə, bir qrup sakinə fəxri adlar, ordenlər, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" verildi. 4 nəfər isə Prezidentin fərdi təqaüdünü alacaq. Şəhərin sosial-iqtisadi inkişafında xidmətlərinə görə isə, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi. Ümumilikdə 66 nəfər sumqayıtlı fəxri adlar və medallarla təltif olundu. Bu sərəncamlar Prezident İlham Əliyevin Sumqayıta və sumqayıtlılara yüksək diqqət və qayğısı kimi tarixə düşdü [3].

*Nəticə.* Araşdırmanın nəticəsi olaraq belə bir qənaətə gəlinmişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2014-cü il ölkədə "Sənaye ili" elan edilməsinin nəticəsi olaraq Sumqayıtda qısa bir müddət ərzində müasir tələblərə cavab verən yeni istehsal sahələri yaradılmış və istifadəyə verilmişdir. 2014-cü il Sumqayıt şəhəri üçün uğurlu olması Sumqayıt şəhərinin sosial-iqtisadi həyatında yüksək artım tempinə şərait yaratmışdır. 2015-ci il 25 oktyabrda ölkə prezidenti İlham Əliyevin Sumqayıt şəhərinə səfərləri və səfər çərçivəsində şəhərin sosial-iqtisadi inkişafında böyük əhəmiyyəti olan 4 sənaye müəssisəsinin açılışında iştirak etməsi iqtisadi inkişafa təkan vermişdir. 2016-cı ildə həyata keçirilən geniş miqyaslı tədbirlər nəticəsində Sumqayıt iqtisadiyyatı sürətlə inkişaf etmiş, aparıcı sahələrdə müsbət irəliləyişə nail olunmuşdur. Sənaye məhsulunun istehsalı ötən ilin (2015) eyni dövrü ilə müqyisədə 78 faiz artaraq 543,9 milyon manat təşkil etmiş, və ya 238,4 milyon manat çox sənaye məshulu istehsal olunmuşdur. 2016-cı illə müqayisədə 2017-ci ildə ümumdaxili məhsulun həcmi 30,2 faiz artaraq 1 milyard 533 milyon manatdan çox olmuşdur. Ötən illə müqayisədə sənaye müəssisələrində məhsul istehsalı 34 faiz artaraq 1milyard 81 milyon manat təşkil etmişdir. Bəhs edilən dövrdə Azərbaycanda aparılan iqtisadi siyasətin mühüm tərkib hissəsi olan sənayeləşmənin həyata keçirilməsi nəticəsində Sumqayıt şəhərində yeni sənaye sahələri yaradılmış, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artmış, ixrac potensialı yüksəlmişdir. Sənaye məhsulların istehsalı 2017-ci ilin eyni dövrü ilə müqayisədə 2018-ci ildə 46,2 faiz artmışdır. Beləliklə, 2014-2018-ci illərdə Sumqayıtda iqtisadi inkişaf yüksələn templə inkişaf etmişdir.

## ƏDƏBİYYAT


1. Abdullayev, M. Sumqayıtın müasir siması müstəqil Azərbaycanın dinamik inkişafını özündə təcəssüm etdirir. URL: https://www.yeniazerbaycan.com/Siyaset_e50286_az.html
2. 2014-cü il yanvar-iyun ayları ərzində Sumqayıtın statistik rəqəmlərlə inkişafı // Sumqayıt. -2014, 9 avqust.- s.2.

3. Cəfərli, R. Sumqayıtın möhtəşəm inkişafı, quruculuğu Heydər Əliyev ideyalarının və İlham Əliyev kursunun təntənəsidir. URL:https://www.azerbaijan-news.az/view-189712/sumqayitin-mohtesem-inkisafi-quruculugu-heyder-eliyev-ideyalarinin-ve-ilham-eliyev-kursunun-tentenesidir
4. Əliyev, Ş. Azərbaycanda sənaye sahələrinin gücləndirilməsi məsələləri. "Məruzələr" AMEA, № 6, -Bakı, -2009, -s.149 (s.139-149)
5. Əliyev Ş. Azərbaycanda sənaye sahələrinin gücləndirilməsi məsələləri. "Məruzələr" AMEA, №6, -s. 142 (139-149)
6. Əliyev, Ş. Sumqayıt sənaye mərkəzində əmək ehtiyatlarından səmərəli istifadədə yeni iqtisadi vasitələrin tətbiqi məsələləri, Maliyyə və uçot jurnalı. №5, -Bakı, - 2009, - s.16 (s. 15-21)
7. Əliyev, V. Azərbaycanın yeni inkişaf mərhələsində Sumqayıt modeli // Yeni Azərbaycan.- 2010.- 8 may.- s.5.
8. İsmayılov, E. Sumqayıt sosial-iqtisadi inkişafın və modern sənayeləşməsinin keyfiyyətcə sürətli mərhələsinə qədəm qoyur // Sumqayıt. – 2015, 2 may. -s.3.
9. Kərimov, Q. Davamlı və sabit inkişaıf təmin edən çevik islahatlar stragetiyası // Sumqayıt. 2018, 14 fevral. s.4.
10. Kərimov, Q. Sabitlik, davamlı inkişaf və sosial rifah strategiyası // Sumqayıt. 2017, 30 dekabr. s.7.
11. Məlikov, Q. Bütün səhələrdə inamlı iş gedir // Sumqayıt. 2014, 18 oktyabr. - s.1
12. Məlikov, Q. Göstəricilər ürəkçandır // Sumqayıt. 2017, 22 aprel. - s.2
13. Məlikov, Q. Hələ görüləsi işlərimiz çoxdur // Sumqayıt. 2018, 21 aprel. - s.3
14. Məlikov, Q. Qeyri neft sektoru inkişafdadır // Sumqayıt. 2015, 18 aprel. -s.2
15. Məlikov, Q. Sürətli inkişaf davam edir // Sumqayıt. – 2015, 21 fevral. - s.2
16. Məlikov, Q. Uğurlu addımlar davam edir. (şəhər fəallarının yığıncağı) // Sumqayıt. 2014, 19 aprel. - s.2
17. Muğanlı, Q. Bütün qüvvələr səfərbərliyə alınmalı // Sumqayıt. 2016, 6 fevral. s.2
18. Prezident İlham Əliyev Sumqayıt Kimya Parkında olub // Sumqayıt. 2017, 16 dekabr. - s.4
19. Prezident İlham Əliyev Sumqayıt kimya sənaye parkında inşaat kimyəviləri zavodunun açılışında iştirak edib // Sumqayıt. – 2018, 14 noyabr. – s.2
20. Məlikov Q. Bütün sahələrdə intensiv inkişaf gedir // Sumqayıt. – 2015, 1 avqust. - s.1
21. Məlikov, Q. Görüləsi işlər hələ çoxdur // Sumqayıt. – 2015, 24 oktyabr. s.1
22. Məlikov, Q. İnkişafın yeni mərhələsi // Sumqayıt. – 2016, 15 oktyabr. -s.2
23. Məlikov, Q. Layiqli zəhmətin sevindirci nəticələri // Sumqayıt. 2017, 21 oktyabr. s.1
24. Məlikov, Q. Sumqayıt sabaha inamla addımlayır // Sumqayıt. 2017, 29 iyul. -s.1
25. Muğanlı, Q. Möhtərəm Prezidentin Sumqayıta və Sumqayıtlılara qayğısı // Sumqayıt. 2015, 19. - s.3
26. Sumqayıtın yeni inkişaf mərhələsi // Sumqayıt. 2018, 10 fevral. -s.2
27. Sumqayıt Sənaye xəritəsində yeni ünvan beton məmulatı zavodu // Sumqayıt. 2015, 17 yanvar. -s.4
28. Sumqayıt Statistika İdarəsi. I rübdə şəhərin sosial-iqtisadi inkişafının yekunları // Sumqayıt. – 2014, 17 may. s.3
29. Sumqayıtda Heydər Əliyev Mərkəzinin yeni binasında şəhər ictimaiyyətinin nümayəndələr ilə görüş // Sumqayıt. 29 sentyabr. - s.8
30. Sumqayıtda texniki avadanlıqlar zavodu istifadəyə verilib // Sumqayıt. 2015, 31 oktyabr. s.2
31. Sumqayıtın inkişafına hərkəs öz töfhəsini verməlidir // Sumqayıt. 2016, 16 aprel. s. 2
32. Şəhərimizdə mis emalı zavodu fəaliyyətə başlamışdır // Məslək. 2014, 18 fevral. s.3

УДК 94/99 (09)

*Мехин Байрат Ибрагимли*
*Сумгаитский Государственный Университет*

ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ ГОРОДА СУМГАИТ (2014-2018 ГОДЫ)
*РЕЗЮМЕ*

*Ключевые слова:* Сумгаит, экономическое развитие, промышленность, Государственная программа, «Год промышленности», экономическое развитие регионов, индустриальные парки

В представленной статье рассмотрено влияние объявления 2014 года «Годом промышленности» в стране создание новых производственных площадей в Сумгаите, внимание и озабоченность Президента Азербайджанской Республики Ильхама Алиева в рамках его визита. городу Сумгаит, создание технопарков соответствующими указами главы государства, ввод в эксплуатацию современных производственных площадей в этих технопарках. Факторы, влияющие на высокие темпы роста в социально-экономической жизни города Сумгаит, были включены в исследование и Государственная программа социально-экономического развития регионов Азербайджанской Республики. Влияние реализации комплексных мер на город как неотъемлемая часть возрастающей динамики социально-экономических показателей Сумгаита, модернизации и совершенствования структуры промышленности, развития ненефтяной промышленности и увеличения проанализирован экспортный потенциал, поддержка создания новых современных производств. Вместе с тем, принятие «Государственной программы развития промышленности на 2015-2020 годы» и комплексное и последовательное выполнение работ в этой области, высокий профессионализм главы исполнительной власти города и социально-экономического развитие регионов по указанию и при непосредственном содействии Президента Ильхама Алиева Влияние успешной реализации государственной программы на создание нового этапа в развитии города Сумгаит и достижение важных достижений в области устойчивого социального развития. и экономического развития, созданный в целях поддержки предпринимательства и увеличения занятости населения в сфере производства Успешное продолжение строительно-монтажных работ новых предприятий в индустриальном парке, создание в Сумгайытском химико-промышленном парке современного типа центра профессионального обучения для подготовки квалифицированных кадров в промышленных сферах, что имеет особую роль и вес. в экономике страны.

UDC 94/99 (09)

*Mehin Bayram Ibrahimli*
*Sumgayit State University*

ECONOMIC DEVELOPMENT OF SUMGAYIT CITY (2014-2018 YEARS)
*SUMMARY*

*Key words:* Sumgayit, economic development, industry, State program, “Industry Year”, economic development of regions, industrial parks

In the presented article, the effect of declaring 2014 as the “Year of Industry” in the country on the creation of new production areas in Sumgait, the attention and concerns of the

President of the Republic of Azerbaijan Ilham Aliyev in the framework of his visit to the city of Sumgait, the creation of technoparks with the relevant decrees of the head of state, the commissioning of modern production areas in these technoparks, the factors affecting the high growth rate in the socio-economic life of Sumgait city were included in the study, and the State program for the social economic development of the regions of the Republic of Azerbaijan, the impact of the implementation of comprehensive measures on the city as an integral part of the increasing dynamics of social and economic indicators of Sumgait, the modernization and improvement of the structure of the industry, the development of the non-oil industry and the increase of the export potential, and the support of the creation of new modern production areas were analyzed.

At the same time, the adoption of the “State program for the development of industry for 2015-2020” and the comprehensive and sequential implementation of works in this field, the high professionalism of the head of the city executive power and the social and economic development of the regions by the order and close assistance of President Ilham Aliyev was indicated. The effect of the successful implementation of the state program on the creation of a new stage in the development of Sumgait city and important achievements in the field of sustainable social and economic development, created in order to support entrepreneurship and increase the employment of the population in the field of production. The successful continuation of the construction and installation works of new enterprises in the industrial park, the creation of a modern-type vocational training center for the training of qualified personnel in industrial fields in the Sumgayit Chemical Industrial Park, which has a special role and weight in the country's economy, was investigated.

***Daxil oldu: 07.03.2025-ci il***